**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.11 qeydiyyat nömrəli Dissertasiya şurasının fəaliyyəti barədə**

Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində qeydiyyat nömrəsi FD 1.11 olan dissertasiya şurası 2011-ci ilin aprel ayından etibarən fəaliyyət göstərir. 2011-2018-ci illərdə bu dissertasiya şurası FD 02.052 qeydiyyat nömrəsi ilə fəaliyyət göstərmişdir. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsinin təşkili məqsədilə yaradılmış bu dissertasiya şurası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 01 noyabr 2019-cu il tarixli F-76 nömrəli əmri ilə FD 1.11 qeydiyyat nömrəsi ilə fəaliyyətini davam etdirmişdir.

2011-2014-cü illərdə dissertasiya şurasının sədri həmin illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutuna rəhbərlik etmiş i.e.d., prof. Rasim Tapdıq oğlu Həsənov, sədr maüvini i.e.d., prof. Sifariz Mirzəxan oğlu Səbzəliyev, elmi katib i.e.n., dos. Niyazi Musa oğlu İsmayılov olmuşdur. Şuranın fəaliyyət göstərdiyi 2011-2012-ci və 2013-2014-cü illərdə ümumilikdə 28 nəfər iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Həmin illərdə dissertasiya şurasında “Mühasibat uçotu, statistika”, “Sahə iqtisadiyyatı” və “İqtisadi fəaliyyət növləri” ixtisasları üzrə dissertasiyaların müdafiəsi təşkil edilmişdir.

2015-2016-cı illərdə dissertasiya şurasının sədri i.e.d., prof. Sakit Məmədi oğlu Yaqubov, sədr müavini i.e.d., prof. Sifariz Mirzəxan oğlu Səbzəliyev, elmi katib i.e.n., dos. Sevinc Ağaməmməd qızı Abbasova olmuşdur. Bu illərdə dissertasiya şurası 5303.01 – “Mühasibat uçotu”, 5304.01 – “İqtisadi fəaliyyət növləri”, 5309.01 – “Sənayenin təşkili və dövlət siyasəti”, 5312.01 – “Sahə iqtisadiyyatı” ixtisasları üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini təşkil etmişdir. Şuranın bu fəaliyyəti müddətində 9 nəfər iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

2017-ci ildən hal-hazıradək dissertasiya şurasına şuranın nəzdində fəaliyyət göstərdiyi İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru, i.e.d., prof., əməkdar elm xadimi Yadulla Həmdulla oğlu Həsənli sədrlik edir, şuranın elmi katibi isə İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri i.e.f.d. Rəşad Aktiv oğlu Hüseynovdur. 2017-2018-ci illərdə dissertasiya şurasının sədr müavini i.e.d., prof. Vahid Tapdıq oğlu Novruzov olmuşdur. Həmin dövrdə dissertasiya şurasının tərkibi 20 nəfərdən ibarət olmaqla təsdiq edilmişdir və şura 5302.01 – “Ekonometriya; iqtisadi statistika”, 5303.01 – “Mühasibat uçotu”, 5304.01 – “İqtisadi fəaliyyət növləri” və 5312.01 – “Sahə iqtisadiyyatı” ixtisasları üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini təşkil etmişdir. Şuranın bu fəaliyyəti müddətində 17

nəfər fəlsəfə doktoru elmi dərəcəsi, 1 nəfər isə iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Onlardan 16 nəfərinin diplomu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmişdir.

2019-cu ildən etibarən dissertasiya şurası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında FD 1.11 qeydiyyat nömrəsi ilə fəaliyyət göstərir. 2019-2022-ci illərdə dissertasiya şurasının sədri i.e.d., prof. Yadulla Həmdulla oğlu Həsənli, sədr müavini i.e.d., prof. Sifariz Mirzəxan oğlu Səbzəliyev, elmi katibi i.e.n. Rəşad Aktiv oğlu Hüseynov olmuşdur. Şuranın tərkibi 20 nəfərdən ibarət olmaqla təsdiq edilmiş və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün şurada 4 ixtisas üzrə dissertasiya işlərinin müdafiəsi təşkil edilmişdir. Bunlar 5302.01 – "Ekonometriya; iqtisadi statistika", 5303.01 – "Mühasibat uçotu", 5304.01 – "İqtisadi fəaliyyət növləri" və 5310.01 – "Dünya iqtisadiyyatı" ixtisaslarıdır. Şuranın bu fəaliyyəti müddətində 24 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Onlardan 18 nəfərinin iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi diplomu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 07 aprel 2023-cü il tarixli №3-50-3-1-1-54/2023 əmri ilə FD 1.11 Dissertasiya şurasının səlahiyyət müddəti yenidən təsdiq edilərərk, 01 noyabr 2025-ci il tarixinədək müəyyən edilmişdir. Bu dövr üçün dissertasiya şurasının sədri i.e.d., prof. Yadulla Həmdulla oğlu Həsənli, sədr müavini i.e.f.d., dos. Fariz Saleh oğlu Əhmədov, elmi katibi i.e.f.d. Rəşad Aktiv oğlu Hüseynov təyin edilmişdir. 20 dekabr 2024-cü il tarixindən dissertasiya şurasının sədr müavini i.e.n., dos. Nazim Özbəy oğlu Hacıyev təyin edilmişdir. Şuranın tərkibi 24 nəfərdən ibarət olmaqla təsdiq edilmişdir. Dissertasiya şurasında fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün şurada 4 ixtisas üzrə dissertasiya işlərinin müdafiəsi təşkil edilmişdir. Bunlar 5302.01 – "Ekonometriya; iqtisadi statistika", 5303.01 – "Mühasibat uçotu", 5304.01 – "İqtisadi fəaliyyət növləri" və 5310.01 – "Dünya iqtisadiyyatı" ixtisaslarıdır. Şuranın bu fəaliyyəti müddətində 33 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

2023-2025-ci illərdə FD 1.11 dissertasiya şurasının yekun tərkibi ixtisaslar üzrə aşağıdakı üzvlərdən ibarət olmuşdur:

**5302.01 – "Ekonometriya; iqtisadi statistika"**

| | | |
|---|---|---|
| 1. | Yadulla Həmdulla oğlu Həsənli (sədr) | İ.e.d., prof. |
| 2. | Asif Ziyadxan oğlu Əliyev | İ.e.f.d. |
| 3. | Fərhad Qamboy oğlu Mikayılov | İ.e.f.d., dos. |
| 4. | Murad Manaf oğlu Bağırzadə | İ.e.f.d. |
| 5. | Murad Ramiz oğlu Tağıyev | İ.e.d., prof. |

| | | |
|---|---|---|
| 6. | Sakit Məmədi oğlu Yaqubov | İ.e.d., prof. |

**5303.01 – "Mühasibat uçotu"**

| | | |
|---|---|---|
| 1. | Sevinc Ağaməmməd qızı Abbasova | İ.e.f.d., dos. |
| 2. | Fazil Şöhlət oğlu Hacıyev | İ.e.d., prof. |
| 3. | Hafis Əhməd oğlu Hacıyev | İ.e.f.d. |
| 4. | Ənvər Sadıx oğlu Salahov | İ.e.f.d., dos. |
| 5. | Mübariz Məmmədhüseyn oğlu Bağırov | İ.e.d., prof. |
| 6. | Vaqif Məhərrəm oğlu Quliyev | İ.e.f.d., dos. |

**5304.01 – "İqtisadi fəaliyyət növləri"**

| | | |
|---|---|---|
| 1. | Nazim Özbəy oğlu Hacıyev (sədr müavini) | İ.e.f.d, dos. |
| 2. | Rəşad Aktiv oğlu Hüseynov (elmi katib) | İ.e.f.d. |
| 3. | Gülənbər Arif qızı Əzizova | İ.e.d., prof. |
| 4. | Kamil Ağazaman oğlu Şahbazov | İ.e.d., prof. |
| 5. | Aytən Təyyar qızı Hüseynli | İ.e.f.d. |
| 6. | Oqtay Qulu oğlu Quliyev | İ.e.f.d. |

**5310.01 – "Dünya iqtisadiyyatı"**

| | | |
|---|---|---|
| 1. | Cabir Cəbrayıl oğlu Mirzai | İ.e.f.d. |
| 2. | Emin Adil oğlu Qəribli | İ.e.f.d. |
| 3. | Gülnar Xanlar qızı Səmədova | İ.e.f.d.. dos. |
| 4. | Hacıağa Baxış oğlu Rüstəmbəyov | İ.e.d., prof. |
| 5. | İrşad Abdul oğlu Kərimli | İ.e.d., prof. |
| 6. | Müşfiq Yelmar oğlu Quliyev | İ.e.d., prof. |

UNEC rektoru i.e.d.. prof. Ədalət Muradovun 25 iyun 2023-cü il tarixli 162/1/2023 nömrəli əmri ilə 2022-2025-ci illərdə FD 1.11 Dissertasiya şurası nəzdində müvfiq ixtisaslar üzrə aşağıdakı mütəxəssislərdən ibarət daimi elmi seminar yaradılmışdır.

**5302.01 – "Ekonometriya; iqtisadi statistika" ixtisası üzrə:**

1. Murad Ramiz oğlu Tağıyev (sədr) – i.e.d., Bakı Dövlət Universitetinin "Riyazi iqtisadiyyat" kafedrasının professoru.

2. Mirvari Xəqani qızı Qəzənfərli (elmi katib) – i.f.d., UNEC "Biznesin idarə edilməsi" kafedrasının müəllimi, proqram rəhbəri.

3. Ramiz Kamal oğlu İsgəndərov – i.e.d., prof., Azərbaycan Texniki Universitetinin "İqtisadiyyat və statistika" kafedrasının məsləhətçi professoru;

4. Vüsalə Eybulla qızı Teymurova – i.e.n., dos., UNEC “Riyaziyyat və statistika” kafedrasının dosenti;

5. Ramiz Cavad oğlu Cavadov – i.f.d., dos., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrasının dosenti;

6. Sərdar Əhmədiyyə oğlu Şabanov – tex.e.n., UNEC-in nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun böyük elmi işçisi;

7. Cəmilə Qəzənfər qızı Musayeva – i.f.d., dos., UNEC “Biznesin idarə edilməsi” kafedrasının müəllimi, proqram rəhbəri.

**5303.01 – “Mühasibat uçotu” ixtisası üzrə:**

1. Fazil Şöhlət oğlu Hacıyev (sədr) – i.e.d., prof., “Maliyyə və audit” kafedrasının professoru;

2. Nəzakət Məmməd qızı Musayeva (elmi katib) – i.f.d., dos., “Maliyyə və audit” kafedrasının dosenti;

3. Cəmilə Bayraməli qızı Namazova – i.e.d., prof. Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyasının Elmi işlər üzrə rəis müavini., UNEC “İqtisadi və texnoloji elmlər” kafedrasının 0,5 ştat əvəzçiliklə professoru.

4. Rahib Nadir oğlu Kazımov – i.e.n., dos., UNEC “Maliyyə və audit” kafedrasının dosenti;

5. Mehriban Şaban qızı Əliyeva – i.e.n., dos., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrası, ixtisas rəhbəri;

6. Aynurə Sabir qızı Hacıyeva – i.f.d., UNEC “Maliyyə və audit” kafedrasının müəllimi, ixtisas rəhbəri;

7. Mehriban Alim qızı Cavadova – i.e.n., dos., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrasının dosenti.

**5304.01 – “İqtisadi fəaliyyət növləri” ixtisası üzrə:**

1. Gülənbər Arif qızı Əzizova (sədr) – i.e.d., prof., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrasının professoru.

2. Gülnarə Akif qızı Fətəliyeva (elmi katib) – i.f.d., Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi.

3. Zakir Məcid oğlu Nəcəfov – i.e.d., prof.;

4. Sevər Mömin qızı Məmmədova – i.f.d., UNEC “Biznesin idarə edilməsi” kafedrasının müdiri;

5. Ərzuman Aydın oğlu Hüseynov – i.f.d., UNEC “İqtisadiyyat” kafedrasının dosenti;

6. Sərvinaz Məmmədhəsən qızı Xanlarzadə – i.e.n., dos., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrasının dosenti, UNEC-in Meybullayev İslam İqtisadiyyatı Mərkəzinin rəhbəri;

7. Lalə Adil qızı Həmidova – i.e.n., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrasının dosenti, ixtisas rəhbəri.

**5310.01– “Dünya iqtisadiyyatı” ixtisası üzrə:**

1. Müşfiq Yelmar oğlu Quliyev (sədr) – i.e.d., UNEC “Biznes və logistika” kafedrasının professoru.
2. Leyla Arif qızı Hacıyeva (elmi katib) – i.f.d., dos., UNEC “Tətbiqi iqtisadiyyat” kafedrasının müəlliimi.
3. Fuad Əlinağı oğlu Qənbərov – i.e.d., prof., Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu, şöbə müdiri;
4. Aqil Aftandil oğlu Eyvazov – UNEC, “İqtisadi və texnoloji elmlər” kafedrasının 0,5 ştat əvəzçiliklə müəllimi;
5. Şövqi Bəhlul oğlu Quliyev – i.e.n., Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun baş mütəxəssisi;
6. Lamiyə Mavəddin qızı Hüseynova – i.f.d., UNEC “Biznes və logistika” kafedrasının müəllimi;
7. Sulduz Mürşüd oğlu Səlimov – i.f.d., Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi.

Dissertasiya şurasında həm Azərbaycan Dövlət İqtisad Universitetinin doktorant və dissertantlarının, həm də digər ali təhsil və elmi müəssisələrinin doktorant və dissertantlarının dissertasiya işlərinin müdafiəsi təşkil olunur.

Disseratsiya şurasında iddiaçılara dissertasiyalarının müdafiəsi üçün əlverişli şərait yaradılır. Dissertasiya şurası aşkarlıq şəraitində fəaliyyət göstərir. Dissertasiya işlərinə tam, hərtərəfli, obyektiv baxılma və bu işlər barəsində əsaslandırılmış qərarlar çıxarılması təmin olunur. Dissertasiya şurasnda dissertasiya işlərinin müdafiəsi elmi seminarların protokol tarixlərinə uyğun növbəlilik əsasında keçirilir.